**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№375/1** **23 aprel 2025-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə fəaliyyətinin yekunlarına dair hesabatı barədə**

Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 12.14-cü "Auditorlar Palatasının 2024-cü il üzrə fəaliyyətinin nəticələrinə dair hesabatın hazırlanması, müvafiq qurumlara və ictimaiyyətə çatdırılması" bəndinə müvafiq olaraq işçi qrupu (Q.Bayramov, N.Talıbov, F.Qarayev, Ş.Əsgərova) tərəfindən hazırlanmış "Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə fəaliyyətinin yekunlarına dair hesabat"ı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə fəaliyyəti qənaətbəxş hesab edilsin (hesabat əlavə olunur).

2. 2024-cü il ərzində Azərbaycan Respublikası Auditorlar Palatasının dövlət proqramlarında iştirakı, Palata tərəfindən auditin təşkili və tənzimlənməsi, şəffaflığın təminatı və korrupsiyaya qarşı mübarizə, auditor xidmətinin keyfiyyətinə kənar nəzarət və kadr hazırlığı, auditor xidməti üzrə iqtisadi göstəricilərin hazırlanması, o cümlədən normativ hüquqi və metodiki təlimatların hazırlanması və maarifləndirmə tədbirlərinin görülməsi, beynəlxalq peşəkar qurumlar və xarici ölkələrin peşə birlikləri ilə əməkdaşlıq üzrə fəaliyyəti sahəsində aşağıda qeyd edilən işlərin icrası yüksək qiymətləndirilsin:

- Beynəlxalq Audit Standartlarının və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartlar ilə birlikdə) yenilənmiş versiyalarının tərcüməsi, redaktəsi və nəşri;
- Auditorların Peşə Etikası Məcəlləsinin tətbiqi üzrə təlimatın hazırlanması;
- "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023–2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərin icrası;
- Korrupsiyaya və ƏL/TM-ə qarşı mübarizə sahəsində kompleks tədbirlərin həyata keçirilməsi istiqamətində işlərin görülməsi;
- "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar Toplusu"nun nəşri;
- "İstixana qazlarının uçotunun əsasları (Dayanıqlı inkişafla bağlı açıqlamalara dair MHBS standartları əsasında)" adlı Təlimatın nəşri;
- "Audit. Yeni dövrün çağırışları" kitabının nəşri;
- Ulu Öndər Heydər Əliyev tərəfindən "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununun imzalanmasının 30 illiyinə həsr olunmuş 2024-cü il 16-17 sentyabr tarixlərində "Yaşıl iqtisadiyyat zəminində hesabatlılıq və şəffaflıq" mövzusunda beynəlxalq elmi-praktik konfransın keçirilməsi;

- Auditor xidmətinin effektivlik meyarlarının hazırlanması;

- Fasiləsiz (davamlı) auditin aparılmasının normativ hüquqi və metodoloji əsaslarının yaradılmasına dair materialın hazırlanması;

- BAS-nın tələbləri əsasında audit sübutlarının toplanması üzrə metodik vəsaitin və müvafiq formaların  hazırlanması;

- Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) təqdim edilmiş fəaliyyət planının icrası ilə əlaqədar məlumatların hazırlanması və göndərilməsi və s.

3. Məsul şəxslərə (Q.Bayramov, N.Talıbov, F.Qarayev, Ş.Əsgərova, B.Abbasov) tapşırılsın ki, üç həftə müddətində "Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə fəaliyyətinin yekunlarına dair hesabat"ın 50 nüsxədə dərc etdirilməsi və aidiyyəti qurumlara göndərilməsi təmin edilsin.

4. Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova, sədrin müşaviri F.Qarayevə, Maliyyə və texniki təminat idarəsinə (B.Abbasov) tapşırılsın ki, cari ilin may ayının sonunadək "Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə fəaliyyətinin yekunlarına dair hesabat"ın qısa icmalının ingilis dilinə tərcümə olunması və Auditorlar Palatasının həqiqi üzvü olduğu Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyasına (EFAA) göndərilməsi təmin edilsin.

5. İcraçı direktor S.Gülməmmədova və Aparatın rəhbəri Q.Bayramova tapşırılsın ki, bir ay müddətində "Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə fəaliyyətinin yekunlarına dair hesabat"ın icmalının ictimaiyyətə açıqlanması məqsədilə KİV-də məqalənin dərc etdirilməsi təmin edilsin.

6. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, ölkə iqtisadiyyatında şəffaflığın artırılması, maliyyə hesabatlarının dürüstlüyünün təmin olunması, obyektivliyin qorunması, dayanıqlı iqtisadi inkişafa nail olunması, ƏL/TMM üzrə öhdəliklərinin yerinə yetirilməsi, habelə auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi, müstəqil auditə ictimai etimadın və auditor peşəsinin cəmiyyətdəki nüfuzunun artırılması məqsədilə Beynəlxalq Audit Standartlarının, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) və Auditorlar Palatasının normativ sənədlərinin tələblərinə riayət etsinlər.

7. Auditorlar Palatasının struktur bölmələrinə tapşırılsın ki, auditin aktual problemləri, dayanıqlı inkişaf, hesabatlılıq və şəffaflıq mühitinin daha da yaxşılaşdırılması, yüksək texnologiyalardan istifadə, rəqəmsallaşma şəraitində yeni dövrün çağırışları nəzərə alınmaqla auditin transformasiyasına nail olunması istiqamətində Palatanın üzvlərinin fəaliyyətinə zəruri diqqət və qayğı göstərilsin.

8. İşçi qrupuna (Q.Bayramov, N.Talıbov, F.Qarayev, Ş.Əsgərova) tapşırılsın ki, üç ay müddətində "Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyəti barədə illik hesabatın strukturu, hazırlanması və nəşri haqqında" Təlimatın təkmilləşdirilməsi təmin edilsin.

9. Bu qərarın və "Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə fəaliyyətinin yekunlarına dair hesabat"ın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**